# QARABAĞDA KƏND TƏSƏRRÜFATININ BƏRPASI VƏ İXRAC POTENSİALI

**Cəmil Tağıyev**

*Azərbaycan Dövlət İqtisad Universiteti, cemil.tagi@mail.ru*

Azərbaycanda ərzaq təhlükəsizliyini təmin etmək, strateji ərzaq məhsullarında idxaldan asılılığı minimuma endirmək, böyük qayıdışdan sonra Qarabağın kənd əhalisi arasında məşğulluğu təmin etmək üçün Qarabağın kənd təsərrüfatının bərpası vacibdir. 1980-ci illərdə Qarabağ və ətraf rayonları ölkənin taxil istehsalı üzrə 14.3%, pambıq istehsalı üzrə 3.3%, üzüm istehsalı üzrə 31.5%, ət istehsalı üzrə 14.5%, süd istehsalı üzrə 17.1%, yumurta istehsalı üzrə 3.6%, kartof istehsalı üzrə 6.3%-ni təşkil edirdi. Qarabağın və Şərqi Zəngəzurun işğal edilməsi ilə bütün təsərrüfat sahələri, yaşayış məskənləri, tarixi-mədəni abidələri dağıdıldı. 44 günlük Vətən müharibəsi ilə tarixi ədalət təmin edildi və ərazilərimiz işğaldan azad olundu. Torpaqların minalanması, bütün infrastrukturun dağılmış vəziyyətdə olması görüləcək işlərin hələ çox olduğunu göstərir. Azad ediləndən sonra yol infrastrukturunun bərpası, torpaqların minalardan təmizlənməsi prosesinə başlanıldı. Qarabağ əhalisinin daha yaxın zamanlarda öz yurdlarına qayıtması üçün intensiv işlər görülür. Füzuli hava limanının istifadəyə verilməsi, yeni yolların inşası ilə quruculuq işləri daha da sürətləndi. Qayıdışdan sonra əhalinin sosial rifahının yaxşılaşdırılması üçün məşğulluğun təmini də mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan kənd təsərrüfatın bərpası prioritetlərdəndir. Yuxarıda göstərdik ki, Qarabağın kənd təsərrüfatı üzrə potensialı yüksəkdir. Bu potensialdan istifadə etmək yerli əhalinin məşğulluğunun təmini, idxaldan asılılığın azalması, yüngül və yeyinti sənaye sahələri üçün də önəmlidir. "Torpaq islahatı haqqında" Qanun qəbul edilən vaxtlar Qarabağ iqtisadi rayonuna daxil olan ərazilərin torpaqları kənd təsərrüfatı üzrə özəlləşdirilməmişdir. İslahatlara qədər kənd təsərrüfatı təyinatlı torpaqların istifadə edilməsi üçün "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların idarə edilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə tənzimlənir.

2021-ci il üzrə gömrük statistikasına görə, Azərbaycana 70.6 milyon dollar həcmində ət, 14.7 milyon dollarlıq süd, 331.9 milyon dollarlıq buğda, 78.9 milyon dollarlıq kərə yağı və süddən hazırlanan digər yağlar, ümumilikdə 1929.9 milyon dollarlıq yeyinti məhsulları idxal edilib. Ümumi idxalda yeyinti məhsulları 16.49% təşkil edir. Qarabağın Azərbaycan iqtisadiyyatına reinteqrasiyası ilə kənd təsərrüfatı üzrə idxal azalacaq və ixrac potensialı artacaq. Aparılmış qiymətləndirməyə görə, Qarabağda kənd təsərrüfatının bərpası aqrar məhsulların həcmində 8 faizdən çox artım olacağı gözlənilir. Qarabağda əkinçiliyin bərbası:

- *Yerli əhali arasında məşğulluğu təmin edəcək.*
- *Kənd təsərrüfatı məhsulları üzrə idxalda azalma olacaq.*
- *İdxalda azalma nəticəsində xaricə valyuta axını da azalacaq.*
- *Yüngül sənaye və yeyinti sənayesi üçün xammal bazası formalaşaq.*
- *Aqrar-sənaye kompleksinin inkişafına səbəb olacaq.*
- *Ixracda qeyri-neft sektorunun artımında xüsusi yeri olacaq.*

Qarabağda heyvandarlığın bərpası:

- *Ət və südə olan tələbatın 10 faizdən çoxunu ödəyəcək.*
- *Kərə yağı və süddən hazırlanan digər məhsulların istehsalı üçün emal sənayesinin inkişafına səbəb olacaq.*
- *Idxaldan asılılıq minimuma enəcək.*

Göründüyü kimi, Böyük qayıdışla Qarabağa yaşamın qayıtması tarixi yurdumuza qovuşmağın sevinci ilə birlikdə iqtisadi inkişafa da öz töhfəsini verəcək.